# Avropa Parlamentinin riyakarlığı

## Bu beynəlxalq təşkilatın ermənipərəst mövqeyi dəyişməz olaraq qalır





İstər Hayastanın torpaqlarımızı işğal altında saxladığı dönəmdə, istərsə də Vətən müharibəsindən sonra Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli münasibətinin şahidi olmuşuq. Ölkəmizə qarşı AP-nin əsassız, ədalətsiz qətnamələri, ermənipərəst mövqeyi bunun bariz nümunəsidir.

Otuz il ərzində Azərbaycanın ərazi bütövlüyünün, beynəlxalq hüququnun pozulduğuna, yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qaldığına, təbii sərvətlərimizin talan edildiyinə heç bir reaksiya verməyən Avropa Parlamenti Hayastana gələndə, tamam başqa mövqe sərgiləyir.

Ümumiyyətlə, Avropa Parlamenti anti-Azərbaycan kampaniyası ilə ölkəmizin ədalətli mövqeyinə təsir göstərərək Hayastanın xeyrinə güzəştlər əldə etməyə çalışır. Bununla da öz riyakar siyasətini, ədalətsiz, ermənipərəst mövqeyini nümayiş etdirir.

Beləliklə, bu qurum reallıqdan uzaq, terrorçu hayların maraqlarını qorumaq üçün qəbul etdiyi sənədlərlə özünü nüfuzdan salır.

### Qərəzli qətnamələr bizim üçün adi kağız parçası belə deyil

Bu barədə qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Sahib Alıyevin fikrincə, yaxşı olar ki, Avropa Parlamenti üzvü olmayan Azərbaycanın daxili işlərinə müdaxilə sayıla biləcək, beynəlxalq normalara zidd qərarlar qəbul etməzdən əvvəl korrupsiyaya qurşanmış rəhbər vəzifədə yer alan təmsilçilərindən qurtulsun.

Deputat vurğulayıb ki, Avropa Parlamentinin ard-arda Azərbaycana qarşı qəbul etdiyi qətnamələrinin arxasında ilk növbədə Fransa durur: "Yaxşı olar ki, Avropa Parlamenti məhz həmin Fransanın özündə yaşayan etnik azlıqlarla bağlı ədalətə dayanan mövqe ortaya qoysun. Avropa Parlamenti doğrudan da humanist prinsiplərdən, ədalətdən çıxış edirsə, niyə beşdən artıq dövlətlə ərazi mübahisəsi olan Fransa ilə bağlı hər hansı mövqe ortaya qoymur? Bu ərazi mübahisələri Fransanın sərhədlərindən ən yaxşı halda 5-10 min kilometrlərlə uzaqda yaranıbdır. Söhbət həmin torpaqların bu yırtıcı imperialist dövlət tərəfindən mənimsənilməsindən, özününküləşdirməsindən, hətta öz departamenti elan etməsindən gedir".

Sahib Alıyev qeyd edib ki, Avropa Parlamentinin qərəzli, beynəlxalq hüquqazidd, səlahiyyətlərini aşan qətnamələri bizim üçün adi kağız parçası belə deyil. Kağız əhəmiyyətli material olduğu üçün üzərinə üzvləri korrupsiyaya qurşanmış, AP kimi qurumların qərəzli, obyektivlikdən uzaq qətnamələri deyil, şedevr əsərlər də yazıla bilir.

### AP-nin Hayastanı dəstəkləməsi təbliğ etdiyi dəyərlərlə ziddiyyət təşkil edir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında qeyd edib ki, Avropa Parlamentinin qərəzli mövqeyi həmişə mövcud olub. O bildirib ki, keçmiş münaqişə zamanı da Avropanın bir sıra institutları, həmçinin AP qərəzli mövqelər sərgiləməkdən çəkinməyib. Başlıca qərəz əlaməti də ondan ibarət idi ki, otuz il ərzində Hayastan torpaqlarımızı işğal altında saxladığı, xalqımıza qarşı terror həyata keçirdiyi müddətdə AP Azərbaycanın ədalətli, haqlı mövqeyini dəstəkləməyib, rəy bildirməyib. Bu, aşkar qərəz idi. Avropa Parlamenti tərəfindən işğalçı Hayastanı açıq mətnlə pisləyən bir dənə də olsun qətnamə qəbul olunmayıb.

Avropa Parlamentinin hər zaman aşkar və ya dolayı mövqelər üzərindən işğalçını dəstəklədiyini vurğulayan Elşad Mirbəşiroğlu bildirib ki, bu, Avropanın dünyaya təbliğ etdiyi dəyərlərlə ciddi ziddiyyət təşkil edir: "Hesab edirəm ki, Hayastanın işğalçılıq siyasətini vaxtilə sürdürməkdə, indi isə regionda sülhün və təhlükəsizliyin təmin olunmasını əngəlləyən mövqelər sərgilənməsində əsasən Avropa strukturlarına güvənir. Bu sırada Avropa Parlamentini xüsusi qeyd etmək lazımdır. Nəzərə almaq lazımdır ki, bir müddət əvvəl məhz Fransanın birbaşa təşəbbüsü ilə Avropa Parlamentində Azərbaycana qarşı qərəzli müzakirə aparıldı və sənəd qəbul olundu. Halbuki indiki şərtlər daxilində Avropa strukturları Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin əsas təminatçısı olan Azərbaycanın yanında olmalı idi, çünki bu region çox əhəmiyyətlidir, burada ölkəmizin mərkəzi iştirakçılığı, təşəbbüsləri əsasında Avropanın enerji təhlükəsizliyində olduqca təsirli rol oynayan layihələr həyata keçirilir".

Deputat qeyd edib ki, Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə daha mühüm rol oynayır. Bütün bunlarla bərabər, həmçinin ölkəmiz öz gücü hesabına torpaqlarımızı Ermənistanın işğalından azad etməklə Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiyanın formalaşmasını şərtləndirdi: "Bu gün regionda sülhün və təhlükəsizliyin etibarlı təmin olunması üçün tarixi imkan yaranıb. "Avropa bütün reallıqlardan çıxış edərək haqlı mövqe sərgiləməli olduğu halda, əksinə, regionda pozuculuq fəaliyyətini genişləndirən, sülh və təhlükəsizliyi əhəmiyyətli dərəcədə məhdudlaşdıran, revanşist hisslərlə yaşayan Ermənistana aşkar dəstək nümayiş etdirir. Bütün bunlar sonda Avropanın özü üçün təhlükəli nəticələr vəd edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-14 mart.- S.8.